*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 82-88*

https://doi.org/10.62837/2025.5.82

**AYSEL CƏFƏROVA**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
ayseljafarova587@gmail.com

# İNGİLİS DİLLİ FAKULTƏLƏRDƏ TƏLƏBƏLƏRƏ İXTİSAS DİLİNDƏ SƏRBƏST SÖZ BİRLƏŞMƏLƏRİNİN ÖYRƏDİLMƏSİNİN PSİXOLOJİ ƏSASLARI

**XÜLASƏ**

Məlum olduğu kimi, dilçilik öz geniş və hərtərəfli inkişafını XIX əsrdən başlayır, rişələri qədim dövrlərə çıxan tarixi – müqayisəli dilçilik bu dövrdə xüsusi tədqiqat metodu olaraq formalaşır. Buna görə də bir elm kimi, dilçiliyin tarixi, adətən bu dövrdən başlanılır. Lakin bu heç də dilçiliyin qədim köklərini, onun keçib gəldiyini inkişaf yollarını inkar etmir, bəlkə də, bu inkişafın davamı kimi meydana çıxır. E.ə. V-IV əsrlərdən başlayaraq XIX əsrə qədər dilçilik çox böyük təcrübə məktəbi keçmişdir və bir sıra sahələrdə ciddi elmi nəticələrə gəlmişdir.

Bütün bunların nəticəsi olaraq belə qeyd edə bilərik ki,bu dövrlərdə sintaksis özünəməxsus mövqe tuta bilməmişdi və əsasən tədqiqat sahəsindən kənarda qalmışdır, belə olan halda biz dilçilikdən söz birləşmələrinin sistemli izahını gözləyə bilmərik. Dilçilik müstəqil sintaktik kateqoriya kimi, uzun zaman söz birləşməsi anlayışına malik olmamışdır. Söz birləşməsi anlayışı dilin ayrıca müstəqil bir vahid və eyni zamanda özünə məxsus xüsusiyyətlərə malik bir sintaktik kateqoriya kimi çox cavandır və bu anlayış indiki dövrdə də, dəqiqləşmə, formalaşma proseslərini davam etdirir.

Qədim yunan elmində sözlərin əlaqəsi və birləşməsi məsələsindən bədii dil, üslubla və ritorika ilə əlaqədar olaraq daha çox danışılmış və olduqca maraqlı fikirlər söylənilmişdir. Söz birləşməsi haqqında olan bu fikirlərin əhəmiyyətini təlimin inkişafında və həmçinin gələcək formalaşmasında nəzərdən keçirmək mümkündür, və bu fikirlər indi də öz əhəmiyyətini saxlayır. Burada əsasən diqqəti cəlb edən cəhətlərdən biri ondan ibarətdir ki, müəlliflər sözlərin birləşməsi və əlaqələnməsində formaya və eyni zamanda məzmuna əhəmiyyət verir, forma ilə məzmunu vəhdətdə alırlar. Bununla onlar forma ilə məzmunu ayıran, dili ancaq məzmunsuz formalardan ibarət hesab edərək *təmiz forma münasibətləri* haqqında uzun – uzadı danışan müasir burjua fəlsəfəsindən, Ferdinant de Sössürün ifrat davamçıları hesab olunan və müxtəlif adlarla meydana çıxan, mahiyyətcə subyektiv idealizm fəlsəfəsinə mənsub olan dilçilərdən, strukturalistlərdən çox – çox irəli getmişlər.

**Açar sözlər: söz birləşməsi, sintaksis, funksionallıq, sərbəst söz birləşməsi, felin şəxssiz formaları**

Söz birləşməsi nitqin gözəlliyi məsələsinə tabe olaraq üslubiyyatın bir sıra hissələrində özünə məxsus yer tutur və izah olunur. Həm də burada sözlərin birləşməsinə çox müxtəlif cəhətlərdən yanaşır, söz birləşməsində iştirak edən sözlərin fonetik tərkibinə, morfoloji quruluşuna, nitq hissələrinə münasibətinə, səslənməsinə, sırasına, məna cəhətinə nəzər yetirilir, birləşmə daxilində hansı formanın daha yaxşı birləşmə yarada biləcəyinin müəyyənləşdirilməsi vacib sayılır. Bu haqdakı fikirlərin bəzilərini aşağıda eyni ilə veririk: Anaksimen "Ritorika" əsərində yazır ki, sözlərin birləşməsi 3 cür olur: ilk olaraq, səsli ilə başlayıb səsli ilə qutarmaq; növbəti, səssizlə başlayıb səssizlə qurtarmaq; sonuncu isə, səssizləri səslilərlə əlaqələndirmək.

Ümümumiyyətlə, söz birləşməsi ilə bağlı fikirləri qədim yunan elmində nəzərdən keçirməklə qısa nəticələrə gəlmək olur:

1. Qədim yunan dilçilyində və üslubiyyatında sözlərin sırasına, məzmun və formsına nəzər yetirilmişdir.
2. Burada sözlərin birləşməsi geniş mənada yəni, sözlərin əlaqələnməsi mənasında işlədilmişdir. Xüsusən əvvəllərdə, sözlərin əlaqəsində mərkəz hissədə adlar, adlarda fellər dayanmışsa da, zaman keçdikcə isə bu daha geniş götürülmüş və bütün nitq hissələrinin əlaqəsi buraya daxil edilmişdir.
3. Yeni dövrdə söz birləşməsi haqqında fikirlər söz birləşməsi təliminin formalaşmasında mühüm rol oynasa da, onun özü olmamışdır, yəni qədim yunan dilçiliyində söz birləşməsi haqqında sintaktik təlim yaradılması mümkün olmamışdı.

**Söz birləşmələrinin funksional xüsusiyyətləri.** Funksional qrammatika ideyalarını A.Boduen de Kurtenen, A.A.Şaxmatov, A.M.Peşkovskinin əsərlərində görmək olar. Funksionalizm ümumi linqvistik cərəyan kimi Praqa funksional dilçilik məktəbi üçün səciyyəvidir.

Funksional ənənə çərçivəsində dil kompetensiyaları modelləri müxtəlifdir. Bu modellər Şərqi Avropada yaranıb. Funksional qrammatikanın müxtəlif növləri mövcuddur.

Dilçilikdə belə bir fikir vardır ki, dildə formalar kommunikativ funksiyanın tələblərinə uyğun yaranır, nizamlanır və ona tabe olur və bu funksiya üçün onlardan istifadə olunur.

Dilin - ifadə vasitələrinin məqsədyönlü sistemi kimi başa düşülməsi bu cərəyanın əsas prinsipidir. Bu ideya R.O.Yakobson, N.S.Trubetskoy və Praqa dilçilik məktəbinin digər nümayəndələri tərəfindən irəli sürülmüşdür və sonralar başqaları tərəfindən inkişaf etdirilmişdir. Dilin əsas funkiyası kommunikasiyaya xidmət etməsidir. Fonemlərin fərqliliyi anlamanı asandlaşdırır, hal sisteminin zənginliyi, sintaktik strukturlar nitqdə müəyyən tapşırığı yerinə yetirirlər.

Dil, danışanın və dinləyənin fikrini maksimum dəqiqliklə və minimum səylə ötürməyə imkan verdiyi halda, ünsiyyətin tələblərinə xidmət etmiş olur [1,392].

Mətnin hər bir hissəsi mətnin formalaşması üçün müəyyən funksiyanı yerinə yetirir. Mətnin əlaqəliliyi üçün hər bir hissəsinin öz funksiyası var. Mətnin demək olar ki, bütün elementləri - söz, cümlə üzvü, cümlə, cümlə qrupları invidual-situativ kontekstə işarə edən funksiyalara malikdir [2,26].

Ətrafımızda gördüyümüz hadisəni müxtəlif variantlarla təsvir etmək mümkündür. Bizə daha real və daha maraqlı görünən bir variantı seçirik. Bu hadisə zamanı bir çox şey baş verə bilər. Kiminsə vəziyyətini, hadisənin baş verdiyi zamanı və s. təsvir etmək mümkündür. Çatdırılması daha mühüm olanı seçirik. Söyləm bir tərəfddən bizim diqqətimizi cəlb edən, haqqında nə isə demək istədiyimiz həqiqət hadisələrini əhatə edir, digər tərəfdən isə bu gerçəkliyə bizim münasibətlərimizi ifadə edir [3,89].

Funksiya anlayışının sintaksis üçün vacibliyi bir çox dilçilər tərəfindən qeyd edilmişdir. Funksiyamsintaksisin nəzəri problemlərindən biridir. Praqa dilçilik məktəbinin bu sahə ilə bağlı xidmətləri diqqətəlayiqdir və bu məktəb tərəfindən dilin ayrı-ayrı səviyyələrinin kommunikütiv dərəcələri fərqləndirilib. Məhz sintaktik vahidlər Kommunikativ funksiyanı yerinə yetirir. Başqa səviyyənin elementləri kommunikativ dəyəri məhz sintaktik səviyyənin vahidləri vasitəsilə əldə edir [4,8].

***Söz birləşmələrin tərkibində olan aparıcı komponentə görə təsnifi.*** Məlum olduğu kimi, hər bir söz birləşməsində müəyyən bir aparıcı (əsas) söz olur, digər söz ve ya sözlər onun ətrafında birləşir və ona tabe olur. Bu baxımdan müasir ingilis dilində söz birləşmələrinin bəzi növləri mövcuddur:

1)Aparıcı sözü isim olan söz birləşmələri, məsələn, a garden flower, Tom's father, etc.

3)Aparıcı komponenti say olan söz birləşmələri, məsələn, five of the boys, thousands of workers, millions of people, etc.

4)Aparıcı komponenti fel olan söz birləşmələri, məsələn, to write a letter, written in pencil, made of wood, etc.

5)Aparıcı komponenti əvəzlik olan söz birləşmələri, məsələn, some of them, all of us, every of the children, etc.

6)Aparıcı komponenti zərf olan söz birləşmələri, məsələn, well-clothed, badly wounded, better in quality, etc. [5,374].

Söz birləşmələri bir sintaktik vahidin bütövüdür. İsmi birləşmələr də bu bəhsə aiddir.

İsmi birləşmə isim təyinedicilərindən ibarətdir. İngilis dilində təyinedicilər ismin qarşısında yerləşir. Burada biz ismi birləşmənin mərkəzində olan ismi (*) ulduzla və təyinedici sözləri isə təyin etdikləri ismə qarşı istiqamətlənmiş oxlarla işarə edirik [4,79].

white **house** - *

large **man - ***

İsmin birləşməsi onun leksik-qrammatik mənası ilə bağlıdır. Əşyanı ifadə edərkən isimlər təbii olaraq əşyanın keyfiyyətini (sifətlər), sayını və sırasını (saylar), hərəkətini (fellər), münasibətini (sözönü) bildirən sözlərlə birləşir.

**Fellərdən ibarət iki komponentli söz birləşməsi.** Feli birləşmələrin tərkibinə daxil olan sözlərin hər biri aparıcı sözə - yəni, felə aid olur və onu izah edir. Bu tipli söz birləşmələrində hərəkətlə onun aid olduğu müxtəlif anlayışlar arasındakı əlaqələr əks olunur və bu proseslə onun aydınlaşdırıcıları arasındakı əlaqələr feli birləşmənin məzmununu təşkil edir. Feli birləşmələrdə əsasən əşyalarla hərəkətlər arasındakı münasibətlər, hərəkətlərlə onların zamanı, məkan və s. arasında münasibətlər ifadə olunur.

Arçibald Hill feli birləşmələri iki qrupa bölür: 1.feli birləşmələr l və ya iki feli olan konstruksiyalar; 2.feli birləşmələr ll [6,125].

Feli birləşmələr l üç yarımqrupa bölünür :

1)fel+məsdər: I want to check

2)fel+ing forma: She keeps working

3)fel+feli sifət ll: They have got rid of the problem.

İngilis dilində ismi məsdər özünəməxsus xüsusiyyətlərə məxsusdur ki, bu onun sintaktik funksiyasında özünü biruze verir. Məsdərin feli xüsusiyyətləri özünü felin şəxs formalarında, tərz formalarında daha geniş şəkildə əks etdirir [5,69]. İngilis dilində məsdər tərkiblərindən biri olan mübtəda məsdər tərkibi feli birləşmələrlə də işlənir. Bu məsdər tərkibi *“to be certain, to be sure, to be likely”* feli birləşmələrlə də işlənir.

Müasir ingilis dilində hər iki komponenti feldən ibarət olan bir qisim birləşmələrinin ikinci komponenti həm indiki zaman feli sifəti (Participle l), həm də keçmiş zaman feli sifətindən (Participle ll) ibarət olur. Belə birləşmələrin 1-ci komponenti məkan daxilində vəziyyət bildirən təsirsiz fel olur. Bu qisim fellərlə to sit, to stand, to lie, to hang və bu kimi fellər aid edilir.

İndiki zaman feli sifəti ilə düzələnlər:

<u>To stand speaking</u>

<u>To lie thinking</u>

Keçmiş zaman feli sifət ilə düzələnlər:

<u>To stand embarrassed</u>

<u>To look confused</u>

*“She sat straight before him”. (Judith Michael. Sleeping Beauty)*

*“I forgot my gloves,” he said, appearing to take something from the side-table. (C.Bronte. Shirley)*

Müasir ingilis dilində felin şəxsiz formalarından biri də cerund adlanır. Cerund feli isim və indiki zaman feli sifətindən əmələ gəlmişdir. Cerund isim kimi, cümlədə mübtəda, predikativ, tamamlıq rolunda işlənə bilir və yiyəlik əvəzliyi, hətta yiyəlik halda olan isimlə təyin oluna bilir [7,173-174]. Məsələn:

*"Once on his room, he resumed his writing. Martin sampled the air before replying". (J.London.Martin Eden)*

Beləliklə, nəticə olaraq demək istəyirəm ki, söz birləşmələrini digər söz, cümlə, frazeoloji vahidlər və sabit söz birləşmələrindən fərqləndirmək lazımdır. Söz birləşmələri istənilən iki nitq hissəsinin (əsas və köməkçi nitq hissələrinin fərqi yoxdur) birləşməsindən ibarətdir. Sərbəst söz birləşmələri isə ən azı iki əsas nitq hissəsinin birləşməsindən ibarətdir. Ümumilikdə isə, sərbəst və sabit birləşmələrin hər ikisi iki və daha artıq müstəqil mənalı sözün leksik və qrammatik cəhətdən birləşməsi nəticəsində əmələ gələn söz birləşmələridir. Ancaq sabit birləşmələrin semantikasında yaranan keyfiyyət onu söz birləşmələri silsiləsindən tamamilə ayırır və nəticə olaraq başqa elm sahəsinin tədqiqat obyektinə çevirir. Sintaksis bölməsində isə yalnız sərbəst birləşmələrin tədqiq edilməsi nəzərdə tutulur.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1.Балли С. Обшая лингвистика и вопросы французского языка. М., 1955. 392 с.
2.Дискурс, реч, речевая деятельность. Функционалные и структурные аспекты. М., 2000
3.Матезиус В. Язык и стиль. Пражский лингвистический кружок. М., 1967
4.Rayevska N.M. Modern English Grammar. Kiev. 1976
5.Musayev Oruc. İngilis dilinin qrammatikası, Bakı, 2007, 587 səh.
6.Rəfibəyli G. İngilis və Azərbaycan dillərində feli tərkiblər. Bakı. Nurlan, 2006
7.Kaushanskaya V.L., Kovner R.L. A Grammar of the English Language. Baku, 2004
8. Золотова Г. Очерк функционального синтаксиса русского языка Т. 1973

**Айсель Джафарова**

**Психологические основы обучения студентов свободному сочетанию слов в языке специальности на англоязычных факультетах.**

**Резюме**

Как известно, свое широкое и всестороннее развитие языкознание начинает с XIX века, историко – сравнительная лингвистика, традиции которой уходят в глубокую древность, формируется в этот период как особый метод исследования. Поэтому историю лингвистики как науки обычно начинают с этого периода. Но это отнюдь не отрицает древних корней языкознания, путей его развития, которые он прошел, возможно, являясь продолжением этого развития. Э.А. Начиная с V-IV веков и вплоть до XIX века языкознание

прошло огромную школу практики и достигло серьезных научных результатов в ряде областей.

В результате всего этого можно отметить,что в эти периоды синтаксис не мог занимать специфических позиций и в основном оставался вне сферы исследования, в таком случае мы не можем ожидать от лингвистики систематического объяснения словосочетаний. Лингвистика как самостоятельная синтаксическая категория долгое время не имела понятия словосочетания. Понятие словосочетания как отдельной самостоятельной единицы языка и в то же время синтаксической категории с присущими ей свойствами очень молодо, даже сейчас это понятие продолжает процесс уточнения, формирования.

В древнегреческой науке к вопросу о соотношении и сочетании слов высказывались более развернутые и довольно интересные идеи в отношении художественного языка, стиля и риторики. Важность этих представлений о словосочетании можно рассматривать в развитии обучения, а также в дальнейшем его формировании, и эти представления сохраняют свое значение и сейчас. Один из аспектов, который в основном привлекает здесь внимание, заключается в том, что авторы придают большое значение форме и одновременно содержанию в сочетании и связи слов, они принимают форму и содержание в единстве. Этим они далеко продвинулись вперед современной буржуазной философии, которая разделяла форму и содержание, долго и упорно говорила о соотношении чистой формы, считая язык состоящим только из форм без содержания, лингвистов – структуралистов, которые считались крайними последователями Фердинанда де Соссюра и выступали под разными названиями, по существу принадлежа к философии субъективного идеализма.

**Ключевые слова: словосочетания, синтаксис, функциональност, свободные сочетания, безличные формы глаголов**

**Aysel Jafarova**

**Psychological basis of teaching free vocabulary in English language to students in English language faculties.**

**Summary**

As is known, linguistics begins its extensive and comprehensive development from the nineteenth century, its history – comparative linguistics, which dates back to ancient times, is formed in this period as a special research method. Therefore, as a science, they begin the history of linguistics, usually from this period. However, this does not deny the ancient roots of linguistics and the ways of its development. E.the A. Since the V-IV centuries till the XIX century, linguistics has passed a very

large school of practice and has come to serious scientific results in a number of fields.

As a result of all this,we can note that in these periods the syntax was not able to take a peculiar position and was largely out of the field of research, so we can not expect a systematic explanation of the word combinations from linguistics. Linguistics, as an independent syntactic category, has not long had a concept of word combination. The concept of word combination is very young, as a separate independent unit of language, and at the same time a syntactic category with its own characteristics, even this concept almost now continues the process of specification, formation.

In ancient Greek science, from the question of the connection and connection of words with artistic language, style and rhetoric, much more was spoken and quite interesting ideas were spoken. It is possible to consider the importance of these ideas about the word combination in the development of training, as well as in the formation of the future, and these ideas now maintain their significance. One of the main points of attention here is that the authors attach importance to the form and at the same time the content in the combination and connection of words, they combine the form and content. Thus, they went far ahead from the modern bourgeois philosophy, which separates the content with the form, considers the language only contextual, and speaks a long time about the relations of pure form, the linguists, structuralists, who are considered the extreme followers of the Ferdinant de Sassor and who belong to the philosophy of subjective idealism, formed by different names.

**Key words:word combinations, syntax, functionality, free word combinations, impersonal forms of verbs**

***Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Fəridə Hüseynova***